Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

# Heydər Əliyevdən başlamış gənclər siyasəti - işğala son qoymuş nəsil yetişdi...

## Gənc nəslin milli mənlik şüurunun inkişaf etdirilməsi və vətənpərvərlik hisslərinin tərbiyəsi

**Müstəqil Azərbaycan dövlətində gənclər siyasətinin əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulub. Özülü vətənpərvərlik üzərində qoyulan gənclər siyasəti gənc nəslin vətənpərvərlik ruhunda tərbiyə edilməsində mühüm rol oynayıb.**



Son 32 ildə Azərbaycanda milli mənlik şüuruna bağlı, vətənpərvər bir gənclik yetişib ki, biz o gəncliyinin əzmini, qeyrətini 44 günlük Vətən müharibəsində təkcə biz yox, bütün region ölkələri, külli-aləm gördü. Azərbaycan gəncliyi sağlam təməllər üzərində inkişaf edən bir tərbiyəyə sahibdir ki, bu onu daim vətənə, xalqa, torpağa bağlı olmasını şərtləndirir.

**Heydər Əliyev və gənclərin hərbi vətənpərvərlik tərbiyəsi...**

Bu mövzuda söhbət açan AMEA-nın A.A.Bakıxanov adına Tarix İnstitutunun Əliyevşünaslıq şöbəsinin aparıcı elmi işçisi, tarix üzrə fəlsəfə doktoru dosent Leyla Hüseynova qeyd edib ki, hərbi vətənpərvərlik tərbiyəsini gücləndirməyin bir istiqaməti də Azərbaycan tarixinin öyrədilməsidir: "...Ümummilli lider Heydər Əliyev hakimiyyətdə olduğu ikinci dövrdə də hərbi vətənpərvərlik işinin gücləndirilməsi məsələlərinə xüsusi diqqət yetirib. O, dəfələrlə hərbi hissələrdə, ön cəbhədə Silahlı Qüvvələrin heyəti ilə görüşüb, problemlərlə yerində tanış olub. Heydər Əliyev hərbi sahənin gücləndirilməsi işi ilə yanaşı, şəhid ailələrinin sosial vəziyyətinin yaxşılaşdırılması məsələlərini də əsas vəzifə hesab edirdi. Ulu Öndər çıxışlarının birində Vətən təəssübkeşliyinin müqəddəsliyini vurğulayaraq bu ifadəni işlətmişdi: "Hamımızın ümumi vəzifəmiz xalqımızda vətənpərvərlik, Vətən torpağına, millətə sədaqət, Vətən uğrunda şəhidliyə hazır olmaq hisslərini formalaşdırmaq, inkişaf etdirmək və təbliğ etməkdir".

L.Hüseynovanın yazdığına görə, Heydər Əliyevin məqsədyönlü siyasəti öz əməli nəticəsini 2020-ci ildə 44 günlük Vətən müharibəsində göstərdi. "2020-ci il sentyabrın 27-də Ermənistanın növbəti təcavüzünə cavab olaraq Ali Baş Komandan İlham Əliyev Azərbaycan Ordusuna cəbhə boyu əkshücum haqqında əmr verdi. Bu qərarı nəinki Azərbaycan Respublikasının on milyonluq vətəndaşları, bütün dünyaya səpələnmiş bütöv Azərbaycan xalqı dəstəklədi. İstər hərb meydanında, istər informasiya sahəsində Azərbaycan xalqının haqq mübarizəsi geniş vüsət aldı. Xalqın, ordunun birliyi fonunda mühüm qələbələrə imza atıldı. Qələbələrin zirvəsi Azərbaycanın dilbər guşəsi, mədəniyyət ocağı, milli qeyrət, milli mənlik simvolu olan Şuşa şəhərinin azad edilməsi oldu. Tarixi memarlıq ansamblı dağıntılara məruz qalmadan Şuşa azad edildi. Şuşanın azad edilməsi qısa zaman çərçivəsində beynəlxalq hərbi ekspertlər, siyasi xadimlər tərəfindən təhlil edildi. Təbii ki, bu həssas yanaşmanı, duyarlılığı yalnız bu diyarın - Qarabağın, Şuşanın əsl sahibləri, əsl sakinləri edə bilərdi" - deyə alim bildirib.

**"Heydər Əliyevin vətənpərvərlik məktəbi milyonlarla gəncin bu ruhda yetişməsinə səbəb olub"**

"Müasir İnkişaf" İctimai Birliyinin sədri, siyasi şərhçi Mübariz Göyüşlü bizimlə söhbətində qeyd etdi ki, Heydər Əliyev gənclərin milli ruhda, vətənpərvərlik ovqatında yetişməsi üçün hələ Sovet dönəmində böyük işlər həyata keçirib. "Azərbaycan əhalisinin böyük bir hissəsini təşkil edən gənclər ölkəmizin ictimai-siyasi, mədəni, elm-təhsil, sosial-iqtisadi həyatında öz fəaliyyətləri ilə mühüm rol oynayır. Dövlətimiz imkanlar daxilində daim gənclərə, gəncliyə qayğı göstərib. Biz bunu hər zaman müşahidə etmişik. Əlbəttə, gənclər siyasətinin əsası Heydər Əliyev tərəfindən qoyulub. Heydər Əliyev hər zaman gənclərə önəm verib, onların vətənpərvərlik ruhunda yetişməsi işinə xüsusi diqqət yetirib. Azərbaycan gəncliyində ulu öndərin qayğısı ilə hər zaman özünə güvən formalaşıb. 2 Fevral Gənclər Günün təsis edilməsi çox mühüm addımlardan biri idi. O cümlədən də gənclərin təhsildə, elmdə, dövlət idarəçiliyində irəli çəkilməsində, ictimai-siyasi proseslərdə aktiv rol almasında ümummilli liderin aparıcı rolu olub. Gənclər təşkilatlarının yaranması, Gənclər və İdman Nazirliyinin təsis edilməsi, idman sahəsində Azərbaycan gənclərinin böyük uğurlar əldə etməsi və s məsələlərin hamısında bu böyük dövlət xadimi əsaslı rol oynayıb. Gənclərlə bağlı məsələ hər zaman onun diqqətində olub. Bu barədə danışarkən xüsusi olaraq Heydər Əliyevin vətənpərvərlik sahəsinə, milli-mənəvi dəyərlərimizə diqqətini vurğulamaq istəyirəm. Gənc nəsilin vətənpərvərlik ruhunda tərbiyəsində, vətənə, dövlətə, xalqa sədaqətində Heydər Əliyev məktəbinin mühüm rolu olub. Heydər Əliyevin vətənpərvərlik məktəbi milyonlarla gəncin bu ruhda yetişməsinə səbəb olub. Buna nümunə üçün 44 günlük Vətən müharibəsində gənclərimizin göstərdiyi şücəti qeyd etmək istəyirəm. Uzun illər torpaqlarımız işğalda idi və bu baxımdan gənclərimizin bir neçə qat vətənpərvər olması tələb olunurdu. Biz yalnız torpaqlarımızın işğalda olduğunu unutmadığımız halda onu azad edə bilərdik. Belə də oldu. Əsası Heydər Əliyev tərəfindən qoyulan bu siyasəti onun siyasi varisi, müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyev çox uğurla həyata keçirir. Bu siyasətin davamlı aparılması nəticəsində Azərbaycan gəncliyi vətənpərvərlik ruhunda tərbiyə aldılar. Gənclərimiz torpaqlarımızı işğaldan azad etməklə xalqımızı çox ağır bəladan, ləkədən qurtardılar. Başımızı o gənclər dikəltdi ki, onlar şəhid olub Vətən uğurunda canlarından keçdilər, bir çoxları da qazilik adı alıb sıramıza qayıtdılar. Bu uğurda gənclər qələbə əldə etdilər və xalqımızın özünə inamını özünə qaytardılar. Bu baxımdan, demək istəyirəm ki, Azərbaycanda çox vətənpərvər, milli şüura bağlı gənclik yetişib və bu vətənpərvərlik tərbiyəsinin də əsası ulu öndər tərəfindən qoyulub"-deyə M.Göyüşlü vurğuladı.

*İradə SARIYEVA*

**Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyilə çap olunur.**